Aqrar Xidmətlər Agentliyi

# KOLORADO KARTOF BÖCƏYİ
## (Leptinotarsa decemlineata Say)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Yetkin fərdin bədəni şarvari-oval formada olmaqla, uzunluğu 9-11 mm arasında dəyişir, üst tərəfi qırmızımtıl-sarı rəngdədir. Alt tərəfində üçbucağa oxşar ləkə vardır. Qabaq döşün üzərində 11 ədəd qara ləkə vardır. Ortadakı ləkə böyük olub V hərfinə bənzəyir. Qabaq qanadları üzərində (hər qanadda 5 ədəd) uzununa gedən qara zolaq vardır. Sürfələr alt tərəfdən yastı, üst tərəfdən qabarıq olub, ortası yoğun, yağlı kimidir. Bədənləri əvvəlcə tünd qırmızı, böyüdükcə narıncı-qırmızı rəngdə olub, üzərində uzununa iki cərgə ilə düzülmüş qara nöqtələr vardır, uzunluğu 15-16 mm-dir.

## Mübarizə tədbirləri

- Məhsul yığımından sonra sahədə kultivasiya aparılaraq, torpağın üst qatına düşən yumrular toplanmalıdır;
- Məhsul yığımından 7-10 gün əvvəl kartof kolları biçilib sahədən çıxarılmalıdır ;
- Zərərvericinin torpaqda qışlayan yetkin böcəklərini məhv etmək məqsədilə quşüzümü fəsiləsinə mənsub olan bitkilər altından çıxan sahələrdə payız-qış dövründə dərin şum aparılmalıdır;

**Təsiredici maddəsi** Acetamiprid (0,06), Cypermethrin (0,16), Imidacloprid (0,15). Mübarizənin I və II yaşlı sürfələrə qarşı aparılması daha səmərəlidir.



**Yetkin fərd**



**Zədəsi**